**Ana, mənə bir layla de**

*(Ləyaqətlə yaşayıb dünyasını dəyişən analara ittihaf edirəm)*

Çox deyirəm sözlərini,
Axtarıram izlərini,
Qucaqlayım dizlərini,
Ana, mənə bir layla de.

Laylanı de həzin-həzin,
Yaxın-uzaq heç duymasın.
Yorğun ruhum qoy titrəsin,
Aman ana, bir layla de.

Xəncər gəzir kürəyimdə,
Xain oxu ürəyimdə.
Məni sanıb bələyimdə,
Sən, balana bir layla de.

Övladınam, mən də varam,
Ümidləri param-param.
Şəfa tapa bəlkə yaram,
Aman anam, bir layla de.

Şirinliyin itirmişəm,
Bəlkə ömrü bitirmişəm?!
Qalx, oğlunu gətirmişəm,
Dirsəklənib bir layla de.

Dərd-sərimlə, azarımla,
Danışaram məzarınla.
Uyuyursan öz yarınla,
Hərdən mənə bir layla de.

Nəyim varsa atıb gəlim,
Xəyallarda itib gəlim.
Elə de ki sən laylamı,
Həmişəlik yatıb qalım...
Ana, mənə son layla de.

**06.02.2020**

**A Dünyam**

Bu bəndə zamana sanki tək gəlib,
Tək Tanrı sevməyən sevgi təklənib.
Qara buluduna qüssə yüklənib.
Leysanın üstümə əndər, a Dünyam.

Sanki bez yox idi, dərdə bələndim.
Kədər kəpəyimlə birgə ələndim.
Kimlərə inanıb harda güvəndim.
Sancdı kürəyimə xəncər, a Dünyam.

Qıyıb tapdadılar yazda gülşəni.
Həyatdan bezdirib həyatsevəni.
Seçib sınamadım dostu, düşməni.
Pusqusan, marıqsan, səngər, a Dünyam.

Qəm qüsüm bu düzdə gəlməz həvəsə.
Kim salar qartalı dağda qəfəsə?!
Nazif lazım deyil daha heç kəsə?
İşini arxivə göndər, a Dünyam!

**Nazif Tağı (1957-ci il doğumlu, Quba rayonu, Susay kəndi)**
**"Fizika kursu" dərsliyinin müəllifi olan Ali kateqoriyalı fizika müəllimi,**
**"İgidliyə görə" medalı ilə təltif olunmuş 2-ci qrup Qarabağ müharibəsi əlili**

Türküstan.- 2020.- 17-30 mart.- S.20.